AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 2 (268), 75-88

**D İ L Ç İ L İ K: Q R A M M A T İ K A**

# Feili bağlamalardan sonra vergül qoyulmalıdırmı?

***Nabatəli Qulamoğlu***
DİM yanında İctimai Şuranın üzvü, təhsil eksperti. Azərbaycan.
E-mail: n_palangov@mail.ru
https://orcid.org/0000-0002-6241-4490

**XÜLASƏ**
Uzun illərdən bəri feili bağlamalardan sonra vergülün işlənməsi qızğın mübahisə predmeti olmuşdur. Bu məqalədə feili bağlamaların qrammatik xüsusiyyətlərinə söykənərək onun əsas feil ilə həmcins ola bilməsi ideyasını mübahisələndirmişik. Dilçilər arasında belə təsəvvür formalaşıb ki, "-ıb", "-araq", "-ınca" şəkilçili sözlərin hamısı feili bağlamadır. Biz bu şəkilçilərdən sonra vergülün qoyulmasının mütləq hal deyil, kontekstual olduğunu vurğulamışıq. Kontekst isə məlum şəkilçili sözlərin yeni qrammatik keyfiyyət əldə etməsi ilə bağlıdır. Həmin halları sadalamışıq. Bu, feilin nəqli keçmiş zamanında işlənmiş həmcins feillər; ara birləşmələr və həmin şəkilçilərin xüsusiləşmiş tərkibdə işlənməsi ilə bağlıdır. Bundan ötrü M.Adilovun həmin mövzuya həsr etdiyi məqaləsi təhlil edilmişdir. Müəllifin araşdırmasında müsbət fikirlər və çatışmayan hallar aşkarlanmışdır. Dilçi alimlərimizin feili bağlama barədə təqdim etdikləri dəyərli fikirlər əsasında geniş müqayisə aparılmışdır. Bununla da isbat edilmişdir ki, feili bağlamalardan sonra vergül qoyulması üçün heç bir qrammatik əsas yoxdur.

**AÇAR SÖZLƏR**
feili bağlama,
punktuasiya,
omonim şəkilçilər,
təsriflənməyən feil

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 15.04.2021
qəbul edilib: 28.04.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO. 2, VOL. 268, 75-88

LINGUISTICS: GRAMMAR

# Should commas be placed after verb conjunctions?

***Nabatali Gulamoghlu***
Member of the Public Council under the State Examination Center, education expert.
Azerbaijan. E-mail: n_palangov@mail.ru
https://orcid.org/0000-0002-6241-4490

**ABSTRACT**
For many years, the development of commas after verb conjugations has been the subject of heated debate. In this article, based on the grammatical features of verb conjugations, we have discussed the idea that it can be the same as the main verb. Among linguists, there is an idea that all words with the suffix "-ıb", "-araq", "-ınca" are verb conjugations. We have emphasized that the comma after these suffixes is not necessarily a context, but a context. The context is related to the acquisition of a new grammatical quality of words with known suffixes. We have listed those cases. These are the same verbs used in the past tense of the verb; intermediate compounds and the development of these suffixes in a specialized composition. For this purpose, M.Adilov's article on this topic was analyzed. The author's research revealed positive opinions and shortcomings. Extensive comparisons have been made based on the valuable ideas presented by our linguists on verb conjugation. This proves that there is no grammatical basis for putting a comma after verb conjugations.

**KEYWORDS**
eprivation, punctuation, endings-homonyms, verb change by persons

**ARTICLE HISTORY**
Received: 15.04.2021
Accepted: 28.04.2021

## Giriş / Introduction

Bir sıra başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də durğu işarələrindən istifadə zamanı bəzi problemlər müşahidə edilir. -ıb$^4$ və -araq$^2$ şəkilçili sözlərdən sonra vergül qoyulmasını mübahisəli məqamlar sırasına aid etmək olar.

Punktuasiya sahəsi üzrə tanınmış mütəxəssis, akademik Z.Budaqovanın bu məsələyə münasibəti belədir: "-ıb və -araq şəkilçili feili bağlama (və ya feili bağlama tərkibləri) cümlənin həmcins üzvü olduqda, onlardan sonra vergül qoyulur:

*Səhərlər Rüstəm məni aparıb, məktəb qapısından içəri salır, öz məktəbinə gedirdi* (C.Cabbarlı)" [3, s.48].

Bununla bağlı müəllif bir sıra istisna halların olduğunu da qeyd edir. İstisna hallar -ıb$^4$ şəkilçili feili bağlamanın zərflik vəzifəsində işlənməsi, eləcə də onunla əsas xəbər arasında bir neçə sözün olub-olmaması ilə bağlıdır.

Verilən nümunə bədii ədəbiyyatdan gətirilsə də, Azərbaycan ədiblərinin ümumi münasibətini ifadə etmir. Aşağıda təqdim edəcəyimiz bədii nümunələr məlum şəkilçili sözlərdən sonra vergülün qoyulmasında qeyri-müəyyənliyin hökm sürdüyünü aydın göstərir. Bu cəhətdən yazıçı və şairlərimizi bir neçə qrupa ayırmaq olar:

1. -ıb$^4$ və -araq$^2$ şəkilçili feili bağlamalardan sonra heç vaxt vergül işlətməyənlər (Mehriban Vəzir, K.Abdulla, Elçin,);
2. -ıb$^4$ şəkilçili feili bağlamalardan sonra vergül işlədən, lakin -araq$^2$ şəkilçili feili bağlamalardan sonra vergüldən istifadə etməyənlər;
3. Məlum məqamlarda vergüldən istifadə etməsi sabit olmayanlar.

Aşağıdakı nümunələrə nəzər salaq:

1. *Tədris hissə müdiri Məlikə xanım on illik məktəb vəsiqəsini Mehmana **təqdim edib**, onun boynunu bərk-bərk qucaqladı* (S.Rəhimov).

*2. Məlikə xanım **çəkilib** Mehmanın gözlərinin içinə diqqətlə baxdı* (S.Rəhimov).

*3. Mehman bu söhbətlərdən nəticə **çıxararaq,** əsl mətləbə, özünün cavabdehində olduğu işinə keçmək istədi* (S.Rəhimov).

*4. Birdən xəyalının dərinliklərində xoş bir xatirə **baş qaldırıb**, dumanlar arasından parıldayan səhər şəfəqi kimi ani olaraq üzünün, alnının qırışıqlarını işıqlandırdı* (M.İbrahimov).

*5. Hazırlaşırdı ki, ata minib fermaya getsin, briqadirlərdən Lal Hüseyn tövşüyə-tövşüyə içəri girdi, iniltili səslə kolxozun yük maşınının gübrə daşıyan yerdə **çevrilib** böyrü üstə yolun altına yuvarlandığını xəbər verdi* (M.İbrahimov).

*6. Şax* ***oturaraq*** *qəlyanı dalbadal alışdırıb sümürür, Səkinə ilə danışmaq üçün fürsət gözləyirdi* (M.İbrahimov).
*7. Qaraqoyunlu sultanı Cahan şah Həqiqini* ***məğlub eləyib*** *Ağqoyunlulara ölkənin sultanlıq taxtına yol açdığından iki il keçsə də, hələ də kifayət qədər* ***qüvvə toplayıb*** *təzədən babasının tutduğu yerlərə göz dikən Sultan Əbu Səidə qalib gəlmək iqtidarında deyildi* (F.Kərimzadə).
*8. Bu axşam saçlarını onunla* ***sirab eləyib*** *ərini gözləyirdi* (F.Kərimzadə).
*9. Əynindəki kip, Bizans üsulunda tikilən donu beldən nazilir, sonra yanlara qalxıb* ***qövs cızaraq*** *aşağıya, xalçanın üstünə enirdi* (F.Kərimzadə).

Göründüyü kimi, hər yazıçıdan bir neçə bədii nümunə vermişik. Məqsədimiz onların qaydalara necə riayət etməklərini göstərməkdir. Problemə elmi cəhətdən yanaşaq. Feili bağlamalar haqqında ilk məlumata Mirzə Kazım bəyin "Общая грамматика турецко-татарского языка" əsərində rast gəlirik. Müəllif türk dilində feili bağlamaların aşağıdakı xüsusiyyətlərini qeyd edir:

1. Feili bağlama feildən və ya gerundiumdan (latınca gerundium, feildən yaranmış isim: reading – чтение) əvvəl gəlir.
2. Bir sıra ikinci dərəcəli mənalar ifadə edir [Kazim bek M. Kazan, 1846].

Burada M.Kazım bəyin vurğuladığı vacib məqam feili bağlamanın "bir sıra ikinci dərəcəli məna" ifadə etməsidir. Bu da feili bağlamanın əsas xəbərlə həmcinsliyini mümkünsüz edir.

Feili bağlamalarda vergül işlədilməsi haqqında ən geniş məlumatı dilçi-alim Musa Adilovun 1961-ci ildə "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalında çap edilmiş "Feli bağlama və vergül" məqaləsində görürük. Burada öz əksini tapmış dəyərli fikirlərdən biri də ondan ibarətdir ki, vergülün morfologiya ilə deyil, sintaksislə, yəni sözün cümlədəki sintaktik rolu ilə bağlı olduğu vurğulanır. Müəllif demək istəyir ki, feili bağlama morfologiyanın predmeti olduğu üçün durğu işarəsini onunla bağlamaq düzgün deyil. Elə məqalənin adından da aydın görünür ki, müəllif feili bağlamalardan sonra vergülün qoyulmasını qəbul etmir. Hesab edirik ki, bu yanaşma tamamilə doğrudur. Məsələ burasındadır ki, tanınmış dilçi-alimlər bir sıra hallarda -ıb$^4$ və -araq$^2$ şəkilçili feili bağlamalardan sonra vergülün işlənməsini feili bağlamanın əsas xəbərlə həmcins olması ilə əlaqələndirirlər. Buna görə də həmin vergül işarəsini feili bağlamanın adı ilə əlaqələndirmək doğru deyil.

Feili bağlamalarda vergülün işlənməsinin doğru olmadığını M.Adilov daha bir səbəblə əlaqələndirir. "Müzakirəsinə toplandığımız məsələnin çox ciddi və siyasi məsələ olmasına baxmayaraq, söhbətimiz sanki qeyri-rəsmi bir şəraitdə gedirdi"

cümləsində vergülün düzgün qoyulmasını təsdiq edən müəllif hesab edir ki, "baxmayaraq" feili bağlamadır, xüsusiləşdiyi üçün vergül qoyulmuşdur [2, s.15].

"Baxmayaraq" sözü feili bağlama kimi işlənə bilər. Aşağıdakı cümlələri müqayisə edək:

*1. Vəli ətrafındakılara baxmayaraq yoluna davam edirdi.*

*2. Vəli, ətrafındakı adamların hədə-qorxusuna baxmayaraq, yoluna davam edirdi.*

1-ci cümlədə "baxmayaraq" sözü feili bağlamadır və cümlənin tərzi-hərəkət zərfliyi rolunda çıxış edir. Onu "baxmadan" sözü ilə də əvəz etmək olar. Həmin sözdəki vurğu 2-ci cümlədə olduğundan fərqli olaraq, daha qüvvətli deyilir. 2-ci cümlədə isə "baxmayaraq" sözü artıq feili bağlamaya aid keyfiyyətini itirmiş və digər nitq hissəsinə transformasiya olunmuşdur. “Baxmayaraq” sözü qoşmalaşan söz kimi işləndikdə aid olduğu feili sifət və feili isim tərkiblərinin xüsusi nəzərə çarpdırılmasına, cümlə daxilində fasilə ilə ayrılmasına və həmin zərfliklərin qarşılaşdırma zərfliyi kimi xüsusiləşməsinə səbəb olur [8, s.230]. 1-ci cümlədən fərqli olaraq, burada qarşılaşdırma mənası vardır. Müəllifin gətirdiyi nümunə 2-ci cümlə ilə identikdir. Yönlük halda olan sözə qoşulduğu və xüsusiləşə bildiyi üçün onu qoşmaya oxşadanlar da vardır [11, s.216]. Bir sıra dilçi-alimlərimiz (Q.Kazmov, Ə.Orucov, A.Axundov və b.) bu sözü bağlayıcı hesab edirlər. Güman etmək olar ki, ikincilər formal cəhətə (hallana bilən sözə qoşulması, xüsusiləşə bilməsi) deyil, sözün məzmununa üstünlük vermişlər. Beləliklə, həmin sözün qoşma və bağlayıcı arasında dəyişə bilən ikili xüsusiyyəti göz qabağındadır. Deməli, xüsusiləşən feili bağlama deyil.

M.Adilov orta məktəblər üçün yazılmış "Azərbaycan dilinin qrammatikası" kitabından (M.Şirəliyev, M.Hüseynzadə) iqtibas vermişdir: "Aşağıdakı hallarda -ıb feili bağlama şəkilçisindən sonra vergül qoyulur:

a) –ıb$^4$ feili bağlama şəkilçisi ilə ifadə olunan hərəkət mübtədaya aid olarsa, vergül qoyulur; məs.: Mən tez maşına minib, gedən yoldaşı yola saldım.

b) –ıb$^4$ şəkilçisi ilə işlənən feili bağlama həmcins xəbər olarsa və bununla əsas xəbər olan feil arasında bir neçə söz iştirak edərsə, feili bağlamadan sonra vergül qoyulmalıdır" [2, s.18].

Göstərilən qaydaların pozulmasına aid istənilən sayda nümunələr gətirmək olar, çünki onlar qeyri-müəyyəndir və bir-birini təkrar edir, eyni zamanda feili bağlama mübtədaya aiddirsə, deməli, o, kitab müəlliflərinin dediyi kimi, əsas xəbərlə həmcinsdir.

Akademik M.Şirəliyevin redaktoru olduğu "Грамматика Азербайджанского языка" adlı kitabda da feili bağlamanın əsas xəbərlə həmcins olması barədə iddia

təkrar olunur. Eyni zamanda orada yazılmışdır: "-ıb şəkilçili feili bağlamalar aşağıdakı xüsusiyyətlərə malikdir:
1) Cümlənin asılı həmcins üzvü rolunda çıxış edərək özündən sonra gələn təsriflənən feildən hərəkətin xarakterini, zaman və şəxsini bildirir” [9, s.73].

Burada "asılı həmcins üzv" dedikdə, feili bağlamanın əsas xəbərdən asılılığı nəzərdə tutulur, halbuki həmcins üzvlər eyni sintaktik vəzifə daşıyan bərabərhüquqlu üzvlərdir.

Dilçi-alim M.Hüseynzadənin 1988-ci ildə nəşr edilmiş "Müasir Azərbaycan dili" kitabında göstərilir: "Feli bağlama təsriflənən feldən fərqli olaraq, başqa bir fellə mənaca bağlanıb, onu müxtəlif cəhətdən izah edir, şəklə, zamana, şəxsə və kəmiyyətə görə dəyişmir" [4, s.189]. Müəllif eyni zamanda feili bağlamanın özündən sonra gələn feildən asılı olub, zərfin cümlədə daşıdığı funksiyanı yerinə yetirdiyini diqqətə çatdırır. O, aşağıdakı cümləni də nümunə olaraq göstərir:
*Ağadadaş əsgər şalvarının balaqlarını dizə qədər çırmayaraq, quyudan su çəkirdi.*

Verilən nümunə ilə M.Hüseynzadənin qrammatik ümumiləşdirməsini müqayisə etsək, ziddiyyət göz qabağındadır. Söhbət ondan gedir ki, müəllifin gəldiyi qrammatik nəticədə feili bağlamanın təsriflənən feil ilə fərqləri göstərilmişdir. Bu fərqlər verilmiş nümunələrdə öz əksini tapmır. Dilçi-alim sonra qeyd edir ki, feili bağlamalar çox vaxt zərflik, bəzi hallarda isə üslubun tələbinə uyğun olaraq cümlənin qeyri-müstəqil həmcins xəbəri olur. Müəllif aşağıdakı nümunələri təqdim edir:
*1.Firidun şananı hələ döyülməmiş taxıl dərzlərinə söykəyib süfrəyə yaxın gəldi...*
*2.Onlar çörəyi tikə-tikə kəsərək mis kasadakı pendirdən onun arasına qoyur və iştaha ilə yeyirdilər.*

Yuxarıdakı cümlələrdə feili bağlamanın əsas xəbərlə həmcins sayılmasına baxmayaraq, onlardan sonra vergül qoyulmamışdır. Bu da onu göstərir ki, müəllif öz ümumiləşdirməsinin doğru olduğuna əmin deyil. M.Hüseynzadənin bədii ədəbiyyatdan gətirdiyi nümunələr bir yana qalsın, hətta o öz yazılı nitqində belə tələb etdiyi qaydaya əməl etməmişdir (yuxarıda altından xətt çəkilmiş feili bağlama).

Həm Z.Budaqovanın, həm də M.Hüseynzadənin yanaşmasına əsaslansaq, -ıb$^4$ və -araq$^2$ şəkilçili feili bağlamalardan sonra o zaman vergül qoyulur ki, həmin feili bağlama əsas xəbərlə həmcins olsun. O da məlumdur ki, feili xəbərlər heç zaman zərflə ifadə oluna bilmir. Bütün bunlara baxmayaraq, müəllif öz fikirləri ilə diametral əks olan belə yanaşma sərgiləyir: "Feili bağlama, bir qayda olaraq, həmişə izah etdiyi feildən əvvəl gəlir və əksərən cümlənin zərfliyi, bəzi hallarda isə üslubun tələbinə görə, cümlənin qeyri-müstəqil həmcins xəbəri olur" [4, s.191].

Hesab edirik ki, dilçi-alimin vurğuladığı "qeyri-müstəqil həmcins xəbər" ifadəsi linqvistik oksimoron kimi qəbul edilməlidir. Heç kim iddia edə bilməz ki, nümunə kimi verilmiş cümlədəki *(Firidun şananı hələ döyülməmiş taxıl dərzlərinə söykəyib süfrəyə yaxın gəldi)* feili bağlama tərkibində zərflik çaları yoxdur. Müəllif davam edir: "Birinci cümlədəki söykəyib feili bağlaması şühudi keçmiş zamanı və III şəxsin təkini ifadə edir, çünki *söykə* feili *-ıb* feili bağlama şəkilçisi ilə *gəldi* feilinə bağlanmışdır" [4, s.191].

Biz yuxarıda məhz professor M.Hüseynzadəyə istinad edərək feili bağlamanın zaman və şəxsə görə dəyişmədiyini qeyd etmişik. Deməli, müəllif özünü inkar edir. Belə çıxır ki, tədqiqatçı ehtimal əsasında qrammatik ümumiləşdirmə aparır. O zaman biz həmin cümləni bir neçə variantda təsəvvür edə bilərik:

1. *Firidun şananı hələ döyülməmiş taxıl dərzlərinə* ***söykəyib*** *süfrəyə yaxın gəldi.*
2. *Firidun şananı hələ döyülməmiş taxıl dərzlərinə* ***söykədi,*** *süfrəyə yaxın gəldi.*
3. *Firidun şananı hələ döyülməmiş taxıl dərzlərinə* ***söykədikdən sonra*** *süfrəyə yaxın gəldi.*

2 və 3-cü cümlələrin hər birində 1-ci cümlədə verilmiş feili bağlama (söykəyib) öz formasını dəyişmişdir. Buna görə də onu zaman zərfliyi funksiyasında qəbul etmək əsas xəbərlə həmcins saymaqdan daha məqbuldur, çünki xəbərlə həmcins sayılan üzvün morfoloji təminatı yoxdur. Qrammatik qayda isə konkret mexanizmlər olmadan dayanıqlı deyil. Əgər 2-ci cümlədə əsas feili indiki və ya gələcək zamanlarda işlətsək, elə təsəvvür yarana bilər ki, *-ıb*$^{4}$ və *-araq*$^{2}$ şəkilçiləri universal zaman şəkilçiləridir. Onu da unutmaq olmaz ki, yalnız 2-ci cümlənin sintaksisi dəyişmişdir, çünki əsas xəbərlə tabelilik əlaqəsində olan "söykəyib" sözü onunla həmcins götürülmüşdür. "Söykəyib" sözünü əsas xəbərlə həmcins götürmək üçün onu feili bağlamaya aid xüsusiyyətlərdən məhrum etməliyik. Beləliklə, "söykəyib" feili bağlamanın əsas xəbərlə həmcins olmasını qəbul etsək, deməli, o, feili bağlama deyil.

Dilçi-alimlər birmənalı şəkildə qeyd edirlər ki, feili bağlamalar zərfə aid olan zaman, tərz və səbəb mənaları vardır. Bəziləri də feili bağlamanın üslubi məqsəd üçün əsas xəbərlə həmcins olduğunu vurğulayırlar. Bütün bu mülahizələr feili bağlamanı transformasiya etmək yolu ilə formalaşır. Aşağıdakı cümlələri müqayisə edək:

*1. Düşmən* ***qorxub*** *qaçdı.*
*2. Düşmən* ***qorxdu*** *və qaçdı.*
*3. Düşmən* ***qorxduğu üçün*** *qaçdı.*
*4. Düşmən* ***qorxduqdan sonra*** *qaçdı.*

Dünya dilçiliyində qrammatik vahidlərin sinkretizmi deyilən bir anlayış mövcuddur [9, s.82]. Yuxarıda verilmiş nümunələrdə də biz feili bağlamanın sinkretik hallarını müşahidə edirik. 1, 3 və 4-cü cümlələrdəki sinkretik mənalar feili bağlamanın əhatə edə bildiyi sintaktik funksiyaya uyğun gəlir, çünki o, cümlənin zərfliyini ifadə edə bilir. 2-ci cümlədə transformasiya edilmiş feili bağlama (qorxub - qorxdu) xəbəri ifadə edə bilməz, çünki burada feili bağlamanın hansı şəxsə aid olduğunu müəyyən edən morfoloji təminat yoxdur, yəni 1-ci şəxsin cəmini digər şəxslərlə əvəz etsək də, feili bağlamanın forması sabit olaraq qalacaqdır. Biz bu əlaqəni yalnız kontekstə uyğun olaraq müəyyən edirik.

1-ci cümlədə fərqləndirilmiş sözə "nə üçün?", 2-cidə "nə etdi?", 3-cüdə yenə də "nə üçün?", sonuncu cümlədə isə "nə zaman?" suallarını veririk. Demək olar ki, dilçi alimlərin əsas xəbərlə həmcins hesab etdikləri istənilən feili bağlamanın ardınca "sonra" sözünü işlətmək olar və bu, hərəkətin zamanını bidirir. Ona görə də -ıb$^4$ və -araq$^2$ şəkilçili feili bağlamaları hərəkəti izah edən üzv kimi təqdim etmək real görünür. Bu həm də feili bağlamanın qrammatik xüsusiyyətlərinə zidd deyil və onu əsas xəbərə həmcins sayılan feili bağlamadan fərqləndirir.

Feili bağlamanın iştirak etdiyi cümlədəki hərəkətlər arasında yalnız ardıcıllıq əlaqəsinin olması faktı da ondan xəbər verir ki, o, əsas xəbərlə həmcins ola bilməz. Həmcins xəbərlər bir-birinə qarşılaşdırma, iştirak bağlayıcıları vasitəsilə də bağlana bilir, halbuki əsas xəbərlə həmcins hesab edilən -ıb$^4$ və -araq$^2$ şəkilçili söz heç zaman onunla (əsas xəbərlə) bu əlaqələrdə müşahidə edilmir.

Eyni fikri professor Ə.Abdullayevin yanaşmasında da görürük. Dilçi-alim həmcins xəbərlərə aid gətirdiyi nümunələrdə feili bağlamanın iştirak etdiyi cümlədən istifadə edir:

*"Bilirsən, Sünbül bacı, Dadaş mənim üzümün suyunu töküb, dinclik vermir, hər gün bir eşqnamə oxuyur.*

*O, kitabxanaya gedib, müxtəlif əlyazmaları oxuyub, lazımi məlumatları topladı"* [1, s.90].

Professor Q.Kazımov hesab edir ki, feili bağlama şəkilçiləri bir hərəkəti digər hərəkətlə bağlamağa xidmət edir [8, s.291]. Feili bağlamanın feilin hibrid forması olduğunu vurğulayan alim yazır: "Fellər feili bağlama şəkilçiləri qəbul edərək öz əsas xüsusiyyətlərini saxlamaqla yanaşı, zərfin xüsusiyyətlərini də qazanır və adverbiallaşır" [8, s.292].

Feili bağlamanı əsas xəbərə həmcins saymaq doğrudursa, o zaman feili xəbərin adverbiallaşmış nitq hissəsi ilə ifadə edilməsi nə dərəcədə ağlabatandır? Dəyişən feillərlə feili bağlamaların fərqindən bəhs edən müəllif qeyd edir ki, şəxsli

feillərlə əlaqə nəticəsində predikativ birləşmələr, feili bağlamalarla əlaqə nəticəsində isə qeyri-predikativ birləşmələr əmələ gəlir [8, s.292]. Buradan da belə bir nəticə hasil olur: qeyri-predikativ birləşmə cümlənin predikativ üzvü ilə həmcins ola bilməz.

Q.Kazımov "camaat kənddə səksəkəli yatıb, səksəkəli dururdu" tipli cümlələrdə feili bağlamalardan sonra vergülün elmi əsaslarını izah etməyin çətin olduğunu qeyd edir [7, s.487]. Professor həmin feili bağlamaların yalnız əsas feil ilə müştərək subyekti olduğunu qeyd edir. Bu, feili bağlamaların əsas xəbərlə həmcins olması anlamına gəlirmi? Dilçi-alim, nəhayət, yekun nəticəyə gəlir: "Feli bağlamalardan sonra vergülün qoyulmasında qaydalar hələ dəqiqləşməyib" [8, s.486].

Müəllif tərəfindən feili bağlamaya aid gətirilən bir çox nümunələrdə (*camaat kənddə səksəkəli yatıb, səksəkəli dururdu; biz də gərək dəstə-dəstə sünbül yığıb, meyvə dərək* və s.) hərəkətin müxtəlif cəhətdən izah edilməsi faktının olmadığını görürük. Etiraf etmək lazımdır ki, bu cümlələrdə hərəkətin zamanını ifadə edən çalar axtarmaq o qədər də məntiqli görünmür (səksəkəli yatdıqdan sonra səksəkəli dururdu). Amma cümləni "həm səksəkəli yatıb, həm səksəkəli durmaq" şəklinə salsaq, fikir dəyişməz. Burada ardıcıllıq əlaqəsinin olmaması –ıb$^4$ şəkilçili sözün feili bağlama olmamasından xəbər verir. Cümlədəki feili bağlamanın paradiqmalarını (biz gərək sünbül yığaraq meyvə dərək, sünbül yığanda meyvə dərək, sünbül yığa-yığa meyvə dərək, sünbül yığarkən meyvə dərək) təqdim edən alim belə qənaətə gəlir ki, bu cür cümlələrdə -ıb$^4$ şəkilçisi şəxs şəkilçisinin sinonimi kimi işlənir və onunla şəxsli feil arasında tabelilik əlaqəsi yoxdur. Professorun fikrini digər oxşar nümunələrlə davam etdirmək olar. Bunun üçün iki cümləni müqayisə edək:

1. *Məqsədim vağzala gəlib, köhnə dostlarla görüşmək idi.*

2. *Tək istəyi dinc yaşamaq, tez yatıb, tez durmaq, pəhriz saxlamaq, nəvələri ilə skaypda danışmaq idi* (M.Vəzir).

1-ci cümlədəki -ıb şəkilçili sözdə zaman çaları (əvvəl gəlmək, sonra görüşmək) axtarmaq olar. 2-ci cümlədə isə nə hərəkəti izah edən çalar axtarmaq mümkündür, nə də həmin sözü məsdərlə (və ya məsdər tərkibi) ifadə olunmuş xəbərlərə həmcins saymaq olar. Burada "istəyi nə idi?" sualına cavab "tez yatmaq idi" deyə bilmərik, çünki cümlənin məzmununa xələl gəlmiş olar. Axı istəyi tez yatmaq deyil, tez yatıb tez durmaq idi. "Tez yatıb" tərkibini məsdərlə ifadə olunmuş xəbərlərə həmcins götürsək, onda gərək həmin ifadəni asanlıqla cümlədən çıxarmaq da mümkün olsun, amma biz onu cümlədən çıxarsaq, cümlənin sintaksisi dəyişər.

Bütün bunlar göstərir ki, -ıb$^4$ şəkilçisinin morfoloji xüsusiyyəti çox mürəkkəbdir. Məlum olan bircə budur ki, göstərilən situasiyalardakı *-ıb*$^4$ feili bağlama

şəkilçisi deyildir. Ona da diqqət yetirmək lazımdır ki, dilçi-alim müqayisə zamanı "feili bağlama" sözünü -*ıb*$^4$ şəkilçisi ilə yanaşı işlətmir.

Q.Kazımovun "-ıb$^4$ şəxs şəkilçisinin sinonimidir" fikrindən belə anlamaq olur ki, şəxs məzmunu iki müxtəlif şəkilçi ilə ifadə olunur. Buradan biz həm də belə nəticə çıxara bilirik: -*ıb*$^4$ feili bağlama şəkilçisinin -*ıb*$^4$ nəqli keçmiş zaman şəkilçisinə münasibəti necədirsə, onun şəxs və ya məsdər şəkilçisinə (əgər belə təsəvvür etsək) olan münasibəti də eynidir, yəni omonim ola bilər. Beləliklə: -*ıb*$^4$ – feili bağlama şəkilçisi, -*ıb*$^4$ – nəqli keçmiş zamanın şəkilçisi, -*ıb*$^4$ – feilin şəxs şəkilçisi, ən nəhayət, -*ıb*$^4$ – məsdər şəkilçisi. O zaman Q.Kazımovun yuxarıda təqdim etdiyi nümunədəki -*ıb*$^4$ şəxs şəkilçisinin omonimidirsə, deməli, feili bağlama şəkilçisi deyil. -ıb$^4$ şəkilçisinin yuxarıda göstərilən ilk iki funksiyası (feili bağlama və nəqli keçmiş zaman) haqqında birmənalı fikir söyləmək mümkün olsa da, sonuncu iki funksiyası barədə deyilənlər ehtimaldan başqa bir şey deyildir. “Məsləhət bilib, gətiriblər” cümləsində feillərin həmcins olması şübhə doğurmur, çünki onların hər ikisi nəqli keçmiş zamandadır. Bunu isbatlamaq üçün variant şəkilçi (-miş) ilə əvəz etmək kifayətdir. Digər tərəfdən, heç kim iddia edə bilməz ki, feili bağlama (guya) əsas feilin yanında işləndiyi üçün ondan sonra vergül qoymaq olmaz. Məhz buna görədir ki, dilçi alimin -*ıb*$^4$ şəkilçisi haqqında söylədiyi yeni yanaşmaya baxmayaraq, o, yenə də feili bağlamanın xəbərlə həmcins olması fikrini dilə gətirmir. Hesab edirik ki, professorun buna tam əminliyi yoxdur. Fikrimizcə, bu problemi şahmat oyunundakı pat vəziyyəti ilə müqayisə etmək olar.

Elə hüquqi-normativ aktlar vardır ki, onların işlək mexanizmi yoxdur. Belə olduqda ya həmin aktlar ləğv edilir, ya da dəyişdirilir. Məqalənin əvvəlində Azərbaycanın tanınmış qələm sahibləri və dilçi alimlərindən gətirdiyimiz nümunələr göstərir ki, məlum qayda işlək olmadığı üçün dəyişilməlidir. Digər tərəfdən, alimlərimiz hər hansı bir qrammatik ümumiləşdirmə üzərində işləyərkən, problemin didaktik tərəfini nəzərə alırlar. Bu cəhətdən çoxsaylı dərslik müəllifi R.İsmayılovun "Azərbaycan müəllimi" qəzetində çap edilmiş "Monitorinqdə vergül maniyası" (8 mart 2013, № 9) adlı məqaləsi diqqətəlayiqdir. Müəllif bəzi punktuasiya qaydalarının tədris prosesi üçün bir buxova çevrildiyini qətiyyətlə pisləyir. Bu sıraya feili bağlamalar da aiddir. Ona görə də hesab edirik ki, -ıb$^4$ və -araq$^2$ şəkilçili feili bağlamalardan sonra vergül qoyulmaması daha məqsədəuyğundur, çünki bu qaydaya nə şagirdlər, nə yazıçılar, nə də alimlər riayət edə bilirlər. Bununla da şagirdlərimiz daha bir mənasız yükdən azad edilmiş olarlar.

Feili bağlamanın əsas xəbərlə həmcins olması barədə deyilənlər inandırıcı sübutlara söykənmir. Bu, yalnız mülahizələrə əsaslanır. -ıb$^4$ və -araq$^2$ şəkilçili feili

bağlama tərkiblərindən sonra yalnız o zaman vergül qoymaq olardı ki, həmin tərkiblər aktuallaşmış olsun, yəni xüsusiləşərək cümlə üzvlərindən ayrılsın, lakin rus dilindən fərqli olaraq, Azərbaycan dilində feili bağlama tərkibləri xüsusiləşmiş üzv sayılmır. Düzdür, feili bağlama tərkiblərində müəyyən aktuallıq hiss olunur, lakin bu aktuallıq onları cümlə üzvlərindən ayırmaq üçün kifayət etmir.

Digər feili bağlamalar əsas xəbərlə həmcins ola bilmədiyi kimi, *-ıb*$^{4}$ və *-araq*$^{2}$ şəkilçili feili bağlamalar da həmin xüsusiyyəti özündə saxlayır. Bəzən elə hallar olur ki, feili bağlamadan sonra bir neçə söz gələrək sintaqma təşkil edir və buna görə də fasilə yaranmış olur, lakin fasilənin olması durğu işarəsindən istifadə üçün yetərli şərt deyil, yəni qrammatik tələb olmadan hər bir fasilədən sonra vergül qoyula bilməz. Əgər biz yalnız fasiləni nəzərə alsaq, cümlədə bütün sintaqmaları vergüllə ayırmalıyıq. Beləliklə, aşağıdakı səbəblər feili bağlamadan sonra vergül qoyulmasını mümkünsüz edir:

1. Feili bağlamanın müstəqil xəbərlə həmcins olması fikri birincinin fəlsəfəsinə ziddir. Feili bağlama hibrid nitq hissəsidir, yəni feil ilə zərfin törəməsidir. İstənilən halda onda zərfin əlaməti vardır. Zərf əlaməti olan nitq hissəsini feil ilə həmcins saymaq doğru deyil. "Fellər feili bağlama şəkilçilərini qəbul etdikdən sonra həmin formada (feili bağlama formasında) təsrif olunmaq imkanlarını itirir" [8, s.292].

2. -ıb$^{4}$ və -araq$^{2}$ şəkilçisi ilə düzələn feili bağlamalardan başqa, heç bir feili bağlamanın əsas xəbərlə həmcins olması barədə mülahizə irəli sürülmür. Bu da ondan xəbər verir ki, həmin feili bağlamaların istisna hal kimi götürülməsi inandırıcı deyil.

3. Feili bağlamanı əsas xəbərlə həmcins saymaq həm də həmcins üzvlərin fəlsəfəsinə ziddir, çünki həmcins üzvlər bir-biri ilə tabesizlik əlaqəsində olur. Digər tərəfdən, dilçi-alim Z.Budaqova qeyd edir ki, -ıb$^{4}$ və araq$^{2}$ şəkilçili feili bağlamalar həmcins üzv vəzifəsində çıxış edərək feilin yanında gələrsə, onlardan sonra vergül qoyulmur [3, s.48]. Sual olunur: onda burada həmcins üzvləri bir-birinə bağlayan vasitə nədir?

4. Feildən fərqli olaraq, feili bağlama şəxsə, zamana, kəmiyyətə və şəklə görə dəyişmir. "Qeyd. -ıb şəkilçisi omonimdir – həm zaman şəkilçisi, həm də feili bağlama şəkilçisi kimi işlənir. Zaman şəkilçisi kimi işləndikdə şəxs şəkilçisi qəbul edə bilir, feili bağlama şəkilçisi kimi işləndikdə şəxs şəkilçisi qəbul etməz..." [8, s.231].

5. Feili bağlama özündən sonra gələn feildən asılı mövqedə çıxış edirsə, onunla həmcins olması absurddur, yəni elə iki nitq hissəsi tapmaq mümkün deyildir ki, onlar həm bir-biri ilə həmcins olsun, həm də biri digərindən asılı olsun.

6. Feili bağlamanın əsas xəbərlə həmcins olmasını qəbul etsək, xəbərin feili bağlama ilə ifadə olunması faktını da qəbul etməliyik. Lakin dilçi alimlərin əsərlərində feili xəbərin ifadə vasitələri sırasında feili bağlamanın olduğuna rast gəlmirik.
7. Əsas xəbəri ifadə edən feildən fərqli olaraq, feili bağlamaların semantikasında dinamika yoxdur.
8. Feili bağlamalar predikativlikdən məhrumdur, lakin bunu əsas xəbər haqqında demək absurddur.
9. Feili bağlamalar rus dilində eyni adlı nitq hissəsindən (deepriçastiye) fərqli olaraq, xüsusiləşmir.

***Свернув**, мы вскоре оказались в парке* (Серебрякова).

Yuxarıda qeyd etdiyimiz kimi, -araq² şəkilçisindən fərqli olaraq, -ıb⁴ feili bağlama şəkilçisinin feilin nəqli keçmiş zamanı ilə omonimliyi vardır və bu hamı tərəfindən birmənalı şəkildə qəbul olunur. Onlar normativ (ifadə Q.Kazımova məxsusdur) adlanan şəkilçilərdən seçilir, çünki yalnız 2 və 3-cü şəxsə aiddir:

*1. Mənəmi **veribsən** sənsiz küçəni, alıb **aparıbsan** sirli gecəmi* (N.Kəsəmənli).

*2. **Gəlib** (sən), **görüb** (sən), **sevib** (sən) və **evlənib** (sən).*

Nümunələrdəki fərqləndirilmiş ayrı-ayrı sözlər bir-biri ilə həmcinsdir, çünki onlar nəqli keçmiş zamandadır.

Feili bağlamalar yalnız transformasiya prosesini başa çatdırdıqdan sonra yeni keyfiyyət kəsb edir, bundan sonra isə onun əldə etdiyi yeni qrammatik xüsusiyyətlərə uyğun olaraq, durğu işarəsindən istifadə edilir. Əslində, elə bu da feili bağlamaların vergül işarəsi ilə heç bir bağlılığının olmaması anlamına gəlir.

1. *Gələcəkdə kimi atmaq, kimi tutmaq məsələsinə **gəlincə**, Züleyxa necə hərəkət edəcək, nə deyəcəkdi?* (S.Rəhimov).
2. *Atam ilə atanı **deyincə (demək əvəzinə)**, özüm ilə özünü de (atalar sözü).*

Verilmiş 1-ci cümlədə feili bağlama ara birləşmənin, 2-cidə isə müqayisə bildirən xüsusiləşmənin tərkibində işləndiyi üçün ondan sonra vergül qoyulmuşdur.

Dil müxtəlif konstruksiyalarla zəngin olduğu üçün –ıb⁴ şəkilçili sözlərdən sonra vergül qoyulması halı ilə rast gəlmək mümkündür. Aşağıdakı nümunələr səsləndirdiyimiz fikri sübut etməyə əsas verir:

*1. Mən tez maşına minib, gedən dostumu yola saldım.*

*2. Mən tez maşına minib gedən dostumu yola saldım.*

1-ci cümlədə tez maşına minmək 1-ci şəxsə aiddir. Əgər bu cümlədə vergül qoyulmasa, belə anlaşılar ki, yola salınan tez maşına minib gedən dostdur. Məlumdur ki, durğu işarəsi üç prinsipə (məna, qrammatik və intonasiyaya) əsaslanır. Məlum kontekstdə vergülün qoyulmasını qrammatik cəhətdən əsaslandırmaq mümkün deyil.

Ən azı, biz feili bağlamalardan sonra vergülün qoyulmasının qeyri-mümkünlüyünü isbat etməyə cəhd etmişik. Bununla yanaşı, həm qrammatik, həm də intonasiya prinsipi mənaya tabedir, çünki punktuasiyanın fəlsəfəsi məna çatdırmaqdır. Deməli, üç prinsipdən ikisi: məna və intonasiya vardır və burada vergülün qoyulması imperativ qaydaya çevrilir. Mübtədadan sonra vergülün qoyulması da heç bir qrammatik əsasa söykənmir. Burada da məqsəd məna dolaşıqlığı yaratmamaqdır.
Bu mövzuda, geniş tədqiqat işi aparılarsa, daha çox oxşar nümunələr üzə çıxa bilər.

## Nəticə / Conclusion

Beləliklə, feili bağlamalar barədə apardığımız təhlillər onu deməyə əsas verir ki:

1. -ıb$^4$ və -araq$^2$ omonim şəkilçilərdir;
2. -ıb$^4$ və -araq$^2$ şəkilçili sözlərdən sonra vergülün qoyulması yalnız situasiyadan asılıdır və bu heç də həmin sözlərin feili bağlama olması ilə bağlı deyil;
3. -ıb$^4$ və -araq$^2$ şəkilçili feili bağlamalar heç vaxt əsas feil ilə həmcins ola bilməz.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. (2007). Müasir Azərbaycan dili. IV hissə: Sintaksis. Bakı, "Şərq-Qərb". 215 s.
2. Adilov M. (1961). Feli bağlama və vergül. "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalı. s.15-20.
3. Budaqova Z. (1977). Azərbaycan dilində durğu işarələri. Bakı, "Elm".
4. Hüseynzadə M. (2007). Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Şərq-Qərb". 278 s.
5. Xəlilov B. (2017). Müasir Azərbaycan dili (sintaksis). Bakı, "Adiloğlu". 428 s.
6. Xəlilov B. (2008). Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, "Nurlan". 444 s.
7. Kazımov Q. (2007). Müasir Azərbaycan dili. Sintaksis. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil". 496 s.
8. Kazımov Q. (2010). Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Elm və təhsil". 399 s.
9. Qulamoğlu N. (2020). Müasir Azərbaycan dilinin bəzi aktual problemləri. Bakı, "Elm və təhsil". s.82-101.
10. Grammatika Azerbaydjanskogo yazika. (1971). Pod redakchiei akad. M.Shiraliyeva. Baku, Elm. 415 s.
11. Kazim bek M. (1846). Obshaya grammatika turechko-tatarskovo yazika. Kazan, V universitetskoy tipografii. 497 s.
12. Tagiev M. Azerbaydjansko-russkiy slovar. I tom. 216 s.